**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**NAZİLƏ HÜSEYN qızı EDRİSİ XOSROŞAHİ**

# TƏBRİZ ŞƏHƏRİNİN ORTA ƏSR MƏSCİDLƏRİNİN MEMARLIĞI

İxtisas : 6401.01- Memarlıq tarixi və nəzəriyyəsi, abidələrin bərpası və rekonstruksiyası

Memarlıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı- 2017**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq konstruksiyaları və abidələrin bərpası" kafedrasında yerinə yetirilmişdir.

***Elmi rəhbər:*** Memarlıq doktoru, professor, AMEA-nın müxbir üzvü
**Cəfər Əli oğlu Qiyasi**

***Rəsmi opponentlər:*** Azərbaycan Memarlıq və İnşaat Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru , memarlıq doktoru professor **N. C. Abdullayeva**
İslam Azad Universitetin Urmiyə filialının müəllimi, memarlıq üzrə fəlsəfə doktoru
**Səid Səməd oğlu Xoşniyyət**

***Aparıcı təşkilat:*** Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu "Memarlıq abidələrinin qorunması və bərpası problemləri" şöbəsi

Müdafiə "24" may 2017-ci il tarixində saat "14.00"-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.041 Dissertasiya Şurasının memarlıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təşkil olunmuş iclasında keçiriləcək.

Ünvan: AZ1073, Bakı şəhəri, A.Sultanova küç., 11, AzMİU, korpus I, m.III, Dissertasiya işi ilə AMİU-nin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "21" aprel 2017-ci il tarixində göndərilmişdir.

***FD 02.041 Dissertasiya Şurasının elmi katibi, memarlıq üzrə fəlsəfə doktoru, dosent*** **S.Ə.AXUNDOVA**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Təbriz şəhərinin fərqli dərəcədə işlənmiş orta əsr memarlığı kontekstində məscid inşaatının, tarixi məscidlərin şəhərin inkişaf tarixində yeri, onların ümummədəni dəyəri, ümumiyyətlə bu dini binaların memarlığının bütün aspektlərinin elmi baxımdan kompleks öyrənilmə zərurəti hər şeydən öncə tarixi binalara ümumbəşəri yanaşma ilə əsaslandırılır. Təbriz şəhərinin yüzillər ərzində formalaşmış memarlıq mühitinin ayrılmaz tərkib hissəsini təşkil edən tarixi məscidlərin keçmişi və bu günü barədə toplanmış zəngin faktoloji materiallar bu şəhərin tarixən bir-birindən fərqli məscidlərinin zəngin palitrasını yaratdığını sərgiləyir. Bu gün bütün bunlar mədəni irs kateqoriyasından sayılmaqla, əlbəttə, müasir şəhərin qiymətli mirasıdır. Binaların yaradıcısı qismində yüksək təfəkkür nümayiş etdirən orta əsr Təbriz memarları ötən çağlarda təbii resurslardan istifadə və cəmiyyətin mədəni tələbatını dərindən dərk etməklə, mənəvi ehtiyacları ödəyən, mühitin və təbii iqlim şəraitinin özəlliklərini nəzərə alan, öz məxsusi kompozisiya prinsipləri olan və məzmuna real görünüş bəxş edən baxımlı əsərlər yaratmışlar. Qədim mədəniyyət mərkəzi olan Təbrizin tarixi məscidləri bu sıradan xüsusi yer tutmaları, əcnəbi alim və səyyahların öz səfərnamələrində onlardan heyranlıqla bəhs etmələri, bir sıra Qərb memar-alimlərinin bu tarixi obyektlərə diqqət yetirmələri mövzuya elmi marağı dərinləşdirir.

Tarixi binalar bir xalqın mədəniyyətini, yaradıcılıq qabiliyyətini və milli mənliyini əyani şəkildə sərgilədiyinə görə, mədəni dünya praktikasında olduğu kimi, dağılma və məhvolma təhlükəsindən qorunmalıdır. Amma təəssüf ki, bu tikililərin çox az hissəsi XX əsrin sürətli dəyişikliklər tendensiyasının sınağından çıxa, öz həqiqi dəyərini və ilkin şəklini qoruyub saxlaya bilmişdir. Gözdən keçirilən dövrün tarixi məscid binalarının bizim günlərdə təyinatı üzrə istifadəsiz qalma səbəblərindən biri tikilinin müasir insanların istək və ehtiyacları ilə uyğunlaşa bilmədiyi, müasir elmi nailiyyətlərə əsaslanan bərpa prosedurundan keçmədiyidir. Keçmiş çağların memarlığına bütün dolğunluğu ilə qayıda bilməsək də, onun yaradıcılıq prinsiplərini, texniki vasitələrini, məktəb ənənələrini və mənəvi əsaslarını tanımalı, bilməliyik.

İslama qədərki dövrdə kiçik bir şəhər olan, İslamdan sonrakı zamanlarda isə İpək Yolunun üzərində yerləşməsindən dolayı böyüyüb-genişlənən, müəyyən dövrlərdə böyük imperiyaların paytaxtı funksiyasını daşıyan Təbrizin şəhər məscidlərinin öyrənilməsi onun genişlənmə və inkişafının, vaxtaşırı baş verən təbii fəlakətlər (əsasən zəlzələlər) nəticəsində məruz qaldığı dağıntılardan sonra bərpa və dirçəlişlər tarixinin öyrənilməsinə vəsilə olan bir mövzu kimi üzə çıxır.

Mövzunun aktuallığı bir də mədəni mirasın keçmişdən bu günə və qələcəyə səliqə ilə ötürülməsi məqsədini izləməklə, nə qədər çox vəsait tələb etmiş olsa da, tarixi məscidlərin ilkin şəklində bərpa zərurəti ilə şərtlənir.

Beləliklə, Təbriz şəhərində tarixi məscidlərin həcm-məkan məsələlərinin, tipoloji və funksional xüsusiyyətlərinin, konstruktiv sistemlərinin, dekor tərtibatının və digər aspektlərinin öyrənilməsi, onların öz əzəli layihələri bazasında bərpa edilməklə, bu tarixi abidələrin ciddi şəkildə qorunması aktual mədəni məsələ kimi qarşıya çıxır.

**Problemin goyuluşu.** Qədim mədəniyyət mərkəzi statusu daşıyan və bu baxımdan beynəlxalq turizmin maraq dairəsində olan və dünyaya geniş açılmış Təbrizin tarixi məkanlarının, bu kontekstdə ötən əsrlərin ruhunu yaşadan tarixi məscidlərin son onilliklərdə qorunma və istifadə probleminin yaranması bu memarlıq abidələrinin yeni gözlə araşdırılmasını bir zərurətə çevirir. Bu məsələ nəzəri ümumiləşdirmələr, əvvəllər elmi dövriyyəyə daxil edilmiş materialların və bu tədqiqat obyektlərinin son durumunun bilavasitə müqayisə edilməsi yolu ilə məscidlərin xüsusi memarlıq-məkan təşkilini aydın bir şəkildə üzə çıxarmaqla həll edilmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Ölkə şəhərlərinin tarixi tikililəri ilə yanaşı, məscidlərin memarlıq xüsusiyyətlərini araşdırmış, o cümlədən bəzi hallarda Təbriz məscidləri mövzusuna da toxunmuş olan İran alimlərdən Hacı Qasemi K., Zumrşidi H., Soltanzadə H., Fəxxar Tehrani F., Memarian Q., Pirniya M., Əminiyan M., Vahabzadə Ə. və başqalarının adlarını çəkmək olar.

Eyni zamanda Azərbaycanın görkəmli alim-memarları: Bayramov R., Bretanitski L., Əmənzadə R., Muradov V., Qiyasi C., Salamzadə A.V. və başqaları öz əsərlərində Təbrizin şəhərsalma və memarlıq

inkişafına ,eləcədə tarixi məscidlərin memarlıq xüsusiyyətlərinə də diqqət yetirmişlər.

Orta əsr səyyahları və yaxın dövrün Qərb alimlərindən İbn Bətutə, Hafiz Abru, L.Q. de Klavixo, Katib Çələbi, Övliya Çələbi, Ernest U., Adam O., Braun E., Grinviler B., Fəzlullah Həmədani R., Kərbəlayi H., Yakob Polak E., Pirzadə M., Diyelafua R., Taverniye, Flandin E., Şarden J., Fiquerva D., Behrens D., Bler Ş., Bler C., Klark R., Hillenbrand R., Uilber D., Qolombek L., Minoriski V., Pope A., Garabar O. və başqaları öz əsərlərində tarixi binaların, o cümlədən məscidlərin memarlıq xüsusiyyətlərini təhlil etmişlər. Yuxarıda göstərilən tarixi mənbələrdə və adları çəkilən alimlərin əsərlərində İran və Azərbaycan şəhərlərindəki tarixi məscidlərinin müxtəlif aspektləri öyrənilsə də, məhz Təbriz məscidləri özünün geniş palitrası və bütün tərəfləri ilə tədqiqata cəlb edilməmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi Təbriz şəhərindəki günümüzədək çatmış məscidlərin sistemli şəkildə təhlil olunması və onların indiki vəziyyətinin araşdırılmasıdır. Təbriz məscidləri kompleks şəkildə gözdən keçirilmiş, onların kompozisiya xüsusiyyətləri, o cümlədən həcm-məkan strukturu, məscidlərin konstruksiyaları və memarlıq-bədii vasitələri araşdırılmışdır. Şəhər strukturunda və məhəllələrdə məscidlərin yerinin təyin olunması onların adlarının dəqiqləşdirilməsi vacıb məsələ kimi qarşıya qoyulmuşdur.

Dissertasiyada aşağıdakı məsələlər məqsədə uyğun hesab edilərək gözdən keçirilir:

- Məscidin quruluşu və memarlıq xüsusiyyətlərı;
- Təbriz şəhərinin coğrafi mühit və təbii iqlim şərtləri;
- Tarixi,iqtisadi və siyasi-ictimaii amillər;
- Təbriz şəhərinın strukturunda məscidlərin yerı;
- Təbriz şəhərində dini memarliğın əsas inkişaf mərhələləri;
- Məscidlərin kompozisiya (həcm-fəza strukturu, konstruksiyalar) xüsusiyyətlərinın öyrənilməsi;
- Məscidlərin inşaat texnikası və inşaat materiallarının təhlili;
- Məscidlərin memarlıq-bədii xüsusiyyətlərı;
- Məscidlərin tipləri.

**Tədqiqatın obyekti** öz təyinatı etibarilə orta əsr mülki abidələrinin vacib qismini təşkil edən məscid binalarıdır.

**Tədqiqatın coğrafi sərhədləri** Təbriz şəhərinin tarixi hissəsinin hüdudları ilə məhdudlaşır.

**Xronoloji çərçivə** şəhərdə məscid inşaatının təqribən yeddi yüz illik bir zaman kəsimini əhatə edir. Yəni, Səlcuqlar və Elxanilər dövrü məscidləri (XI-XIV əsrlər), Teymurilər, Qaraqoyunlular və Ağqoyunlular dövrü məscidləri (XIV-XV əsrlər) və Səfəvilər dövrü məscidləri (XVIII əsrin əvvəllərinədək) ilə məhdudlaşır.

**Tədqiqatın metodologiyası** Təbrizin tarixi məscidlərinin natura tədqiqinə, fotofiksasiya materiallarına, bu tarixi binaların funksional xüsusiyyətlərinin və inşa mexanizmlərinin araşdırılmasına, tarixi və müasir vəziyyətinin müqayisəli təhlilinə, ayrı-ayrı məscid binalarının memarlıq-konstruktiv baxımdan öyrənilməsinə əsaslanır. Vaxtilə İranın Milli Miras Təşkilatı tərəfindən aparılmış ölçmə işlərindən, köhnə rəsmlərdən, orta əsr miniatürlərindən, yazılı qaynaqlardan, arxiv materiallarından götürülmüş məlumatların sistemləşdirilməsi və nəzərdən keçirilməsi bu tədqiqat işinin metodoloji təməlini təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** bununla ifadə olunur ki, Təbriz şəhərinin tarixi mirası cərgəsində üstün mövqe tutan tarixi məscidlərinin memarlığı özlüyündə vacib mövzu olsa da, indiyədək kompleks şəkildə elmi tədqiqata cəlb edilməmişdir. Əlbəttə, ayrı-ayrı yerli və əcnəbi müəlliflərin Təbrizin bu və digər məscidinin memarlıq xüsusiyyətlərinin fərqli tərəflərinə ötəri münasibətləri istisna təşkil edir. Təqdim olunan dissertasiya çərçivəsində Təbrizin şəhər məscidlərinin memarlığı özünün bütün aspektləri ilə ilk dəfə kompleks şəkildə gözdən keçirilir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın gedişi göstərmişdir ki, ötən yüzillərin misilsiz abidələri olan Təbriz məscidlərindən bir çoxunda əsaslı bərpa və rekonstruksiya işlərinə ehtiyac duyulur. Odur ki, bu tədqiqat işinin başlıca müddəalarından bu qədim şəhərin zəngin keçmişinə güzgü tutan, təbii fəlakətlər və digər hadisələr səbəbindən zərər çəkmiş tarixi məscidlərin bərpasında, praktik layihə işlərində, konkret hər bir abidə üzrə elmi və tarixi tədqiqatların həyata keçirilməsində istifadə edilə bilər. Digər tərəfdən, bu tarixi abidələrin daha məqsədyönlü şəkildə tanıdılmasına, memarlıq tədqiqatlarının diqqət mərkəzinə gətirilməsinə bir vəsilə olar. Son zamanlar Təbriz şəhəri üzrə turizm industriyasının inkişaf etdiyini, bu şəhərə və onun tarixi abidələrinə marağın artdığını, günün tələbinə

uyğun olaraq rəqəmsal illüstrativ materialların mərkəzləşdirilməsinin, abidələrin inventarlaşdırılması və tam pasportlaşdırılmasının, müvafiq kataloqların nəşrinin ön plana çıxdığını nəzərə aldıqda bu tədqiqat işi mütəxəssislər üçün faydalı olardı.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın ayrı-ayrı bölmələrinin məzmunu, əsas nəticələri və təhlili barədə 2008-2016-cü illərdə Azərbaycanda, İstanbulda,Rusiyədə,İranda(Təbriz,Məşhəd,Tehran,Şiraz,Həmədan,BəndərAbbas) keçirilən beynəlxalq mahiyyətli elmi–praktiki konfranslarda məruzələr edilmiş və jurnallarda 15 məqalə şəklində dərc edilmişdir. Təbrizin Qacar məscidlərinin haqqinda bir kitab fars dilinə yazılmışdır və Şərqi Azərbaycanin memarlığı haqqinda bir kitab fars dilində tərcümə olunmuşdur.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiyanın mətn hissəsi girişdən, üç fəsildən, yekun nəticələrdən, ədəbiyyat siyahısından və qrafik-analitik illüstrasiyalardan ibarətdir.

## DISSERTASIYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun əsaslandırılmasına baxılır, tədqiqatın aktuallığı, məqsədi, vəzifələri və metodologiyası açıqlanır, nəzəri-praktiki əhəmiyyəti və elmi yeniliyi xarakterizə olunur, araşdırılan işin elmi və praktik dəyərləri şərh edilir.

**I fəsildə « Məscidlərin formalaşması və inkişafina təsir göstərən amillər »** araşdırılır.

**1.1. Məscidin quruluşu və memarlıq xüsusiyyətləri.** İslam dininin məbədi olaraq yaranmış məscidin mahiyyəti , plan-məkan quruluşu, əsas elementləri(mehrab,minbər,minarə və s) şərh olunur. Tarixi araşdırmalararın nəticələri göstərir ki, İran coğrafiyasındakı məscid nümunələrində mövcud olan hər bir element tədricən məscidin memarlıq quruluşu və məkanın malik olduğu sistem çərçivəsində meydana gəlməklə, zaman keçdikcə daha da təkmilləşərək zənginləşmişdir. Tip rəngarəngliyinə baxmayaraq İran məscidlərinin ümumi quruluşu və əsas elementləri, demək olar eynidir.

**1.2. Coğrafi mühit və təbii iqlim şərtləri.**Bü bolumdə Təbriz şəhərinin coğrafi yeri, relyefi, təbiətı,havası,seysmik problemləri şərh olunur. Məscidlərin inşasında dini və siyasi tələblər iqlim şəraitinə nisbətən daha böyük əhəmiyyət daşıyırdı. Lakin məscidlərin inşasında dini və siyasi şərtlərlə yanaşı, yerli iqlim şəraiti və bundan dolayı binanın daxilində rahatlığın təmin edilməsi də nəzərə alınırdı.

**1.3. Tarixi , iqtisadi və siyasi-ictimaii amillər.** Təbrizin şəhər kimi inkişaf tarixi ,regionun ən iri ticarət və sənaye mərkəzi olması, uzun müddət iri dövlət quruluşlarının paytaxtı funksiyasi daşıması şərh olunur,bu amillərin məscidlərin tikintisinə təsiri aydınlaşdırılır.

**1.4. Təbriz şəhərinın strukturunda məscidlərin yerı.**Təbrizin şəhər strukturunda məscidlərın yerını təhlil edərkən xəritələrə (Matrakçının xəritəsi, 1828-ci il xəritəsi, Darüs-səltənə xəritəsi və Təbrizin müasir xəritəsi) müraciət olunmuş, məhəllələrin adı, orada yerləşən məscidlərın yeri və adı təyin edilib ardıcıllıqla sadalanmışdır. Məhəllə ərazilərinin plan sxemləri dəqiqləşdirilib.

**II fəsildə**: **« Təbriz şəhərində dini memarliğın əsas inkişaf mərhələləri »** adlı fəsildə Təbriz şəhərinin tarixi məscidlərini səciyyələndirən xüsusiyyətlər ,onların memarlığı və konstruksiyası təhlil olunmuşdır.

**2.1. Səlcuqlar və Elxanilər dövrü.** Təbriz şəhəri ərazisində qalmiş ən qədim(XI-XIV əsr) məscidlərin yaranma tarixi ,plan quruluşu və həcm-məkan həllin araşdırılarkən müəyyən edilir ki, bu çağın memarlığında müşahidə olunan üslub yetkinliyi və güclü bədii-memarlıq məktəblərinin formalaşması da həmin tarixi yüksəliş dönəminin məntiqi nəticəsi idi. Bütün İslam dünyasının memarlıq məktəbləri kimi Təbriz memarlıq məktəbinin inkişafı da varislik xarakteri daşımışdır. Təbriz şəhərinin XI-XIV əsr məscidləri bulardan ibarətdır: Cümə (came) məscidi,Hacət məscidi,Əlişah məscidi və Ustad və Şagird məscidi.Bu məscidlərin hər biri ayrılıqda tədqiq edilmişdir.

**2.2. Teymurilər dövrü.** XV əsrlərdə tikilmiş Təbriz məscidlərinin(Göy məscid,Həsən padişah məscidi) yaranma tarixi , plan quruluşu və həcm-məkan həlli araşdırılarkən müəyyən edilir ki, kompozisiyada həcmli elementlərin sayca çoxluğu (baştağların irəli çıxarılması, böyük mərkəzi günbəzin çevrəsində kiçik günbəzlərin

meydana çıxması və s.) bir çox bina tipinin görkəmini dəyişdirdi. XV yüzilin binalarında Elxanilər dönəmi üçün səciyyəvi olan öncəki azmanlıq olmasa da, onların günbəzin yüksək boyun (baraban) üzərinə qaldırılması ilə ifadə olunan yeni quruluşu və bəzəyin möhtəşəm zənginliyi memarlıq görkəminə özəl təntənə verdi. Eləcə də, XV əsrin tikililərində öncəki dönəm memarlığı üçün səciyyəvi olan elementlərin dinamik uyarlığına daha az tuş gəlinir. Buna görə, kompozisiya önəmi daşıyan, həcmli elementlərin çoxalmasına baxmayaraq, bu dönəmin memarlıq kompozisiyaları daha statikdir. Təbrizin bədii məktəbləri üçün XV yüzil bitkinlik çağı kimi xarakterizə edilə bilər: yüksələn xətlə inkişaf edən Təbrizin bədii çevrəsində klassik memarlıq əsərləri yaranır. Qaraqoyunlu Cahan şah (1438-1467), Ağqoyunlu Uzun Həsən (1453-1478) və Sultan Yaqub (1478-1490) dönəmlərində Təbrizdə intensiv tikinti işləri aparılmışdır. Yüksək təhsilli hökmdar Cahan şah alim və rəssamları himayə edir, Həqiqi təxəllüsü ilə türkcə və farsca şeirlər yazırdı. Cahan şahın Təbrizdə ucaltdığı binaların çoxu XVII yüzilədək qalmışdı.

**2.3. Səfəvilər dövrü.** XVII əsrlərdə inşa edilmiş Təbriz məscidlərinin yaranma tarixi , plan quruluşu və həcm-məkan həllinin araşdırılır.

XVI-XVII yüzillərdə daha intensiv tikinti işləri Təbriz və Qəzvin paytaxt şəhərlərində və Səfəvilər sülaləsinin doğma yeri Ərdəbildə aparılmışdır. Təbrizdə bir neçə müdafiə, dini və saray tikililərinin inşa edilməsi şəhərin keçmiş əzəmətini bərpa edə bilmədi.Bu çağın məscid kompozisiyalarında həcm duyğusu və hərəkət zəifləmişdir. Bəzi məscidlərdə (Təbrizdə Şah I Təhmasib məscidi) standart tağçaların uzununa davamı binanın baş fasadını müəyyənləşdirdiyindən onların məkan kompozisiyasında Elxanilər çağının dinamik quruluşlarının emosional gücü yoxdur.Bu dövrün Təbriz məscidlərinin xüsusiyyətləri Sahibüləmr,Zəhiriyyə,Məqsudiyyə və Hac Səfərəli məscidlərinin təhlili yolu ilə aşkar edilmişdir.

**III fəsildə**: **« Məscidlərin memarliq həlli və tektonikası ».** Bu fəsildə məscidlərin tipləri, memarlıq kompozisiya

xüsusiyyətləri.Məscidlərin inşaat texnikası və memarliq bəzəyi şərh olunur.

**3.1.Məscidlərin tipləri.** Məscidlərin tipologiyasında ən önəmli rol oynayan və məscidlərdə mövcud ən mühüm ox, qiblə oxudur (qiblə istiqamətində mehrabdan keçən ox). Araşdırılması nəzərdə tutulmuş məscidlərin tipologiyası, məscidin müxtəlif salon və hissələri qibləyə nisbətdə üç vəziyyətdə ola bilər: birinci növ tipologiyada günbəzxana(günbəzlə örtülən məkan) və kənar hissələrin (ikinci dərəcəli şəbistanlar, vestibül, dəhliz və sair giriş hissələri…) hamısı qiblə oxunun üzərində yerləşirlər. İkinci növ tipologiyada günbəzxana qiblə oxunun üzərində və digər kənar salon və hissələr iki tərəfdə yerləşirlər. Üçüncü növ tipologiyada günbəzxana qiblə oxunun üzərində yerləşir, digər kənar salon və hissələr isə hər iki növ formasında, yəni həm qiblə oxunun iki tərəfində, həm də onun davamı boyunca yerləşmiş olur. Məscidlərin struktur baxımından tipoloji qruplara bölmək lazım gəldikdə, Təbriz bölgəsinin momumental məscidlərinin dörd tipdə: mərkəzi günbəzli, eyvanlı-tağbəndli və T-şəkilli və zallı (şəbistani) olduğu müəyyən edilir.

**3.2. Məscidlərin memarlıq kompozisiya xüsusiyyətləri.**

Məscidlərin kompozisiya hissələri təhlildən keçirilmiş, plan, həcm-məkan, konstruksiyalar təqdim olunmuşdur.Məscidlərin kompozisiya xüsusiyyətlərinin təhlilində minarələrin və günbəzxanaların yeri araşdırılarkən müəyyən edilir ki, əksər məscidlərdə minarələr ön fasadın guşələrində yerləşir. Günbəzxanalar əksər məscidlərdə planın ortasında qərar tutur. Onların diametrı Ağqoyunlular dövrü memarlığında başqa dövrlərlə müqayisədə çox enli və Qaraqoyunlular dövrü memarlığında isə çox hündür olmuşdur. Məscidlərin həyəti ilə bağlı 4 növ təqdim etmək olar: həyət məscidin bir tərəfində yerləşir (Came, Ustad və Şagird , Sahibüləmr, Əlişah, Hac Səfərəli və Zəhiriyyə məscidləri); məscidin iki tərəfində həyət (Meydan, Məqsudiyyə, Həsən padşah məscidləri); məscidin üç tərəfində həyət; Məscidin dörd tərəfində əyət (Göy məscid)**.**Məscidlərin planlarını simmetriya və balans baxımından gözdən keçirərkən müəyyən edilir ki, Həsən Padşah, Came və Sahibül-əmr məscidlərinin planları iki oxlu, Hacət, Ustad və Şagird , Göy, Hac Səfərəli və Zəhiriyyə məscidləri vahid oxlu simmetriyaya malikdir. Bu məscidlərin planında da sadəcə günbəzxana sahəsində iki oxlu və ya şüa

simmetriyasına rastlaşırıq. Lakin Meydan məscidində böyük bir şəbistan şərq hissədə yerləşdiyinə görə simmetriya oxu çox zəifdir.

Bu bölümdə həmçinin məscidlərin şəhərin strukturu baxımından məscidlərdə fərqlilik,məscidlərdə təbii işıqlandırma, iyerarxiya,məscidlərdə həyət, həndəsə( beşbucaqlı və ondan yaranan həndəsə və qızıl düzbucaq həndəsəsi ) araşdırılır.Məscidlərın əksəriyyətinin əsas məkanlarının forması kvadrat və ya düzbucaqlı şəklindədir. Düzbucaqlı formaya malik olan məscid məkanlarında qızıl düzbucaq həndəsəsi tətbiq olunmuşdur.

Burada məscidlərdə məkanın hündürlük növləri də araşdırılmışdır Rəng, tikinti materialları, hündürlüyün dəyişməsi, korpusun dolma və boşalması kimi memarlıq elementləri məkanlarda müxtəlifliyin yaranmasına imkan verir.Araşdırılan məscidlərdə onların yüksəkliyində müxtəliflik müşahidə edilir.Tağ və günbəzin tikintisinin inkişafı digər dövrlərdə çox, Səlcuqlar dövründə nisbətən az olmuşdur .

**3.3. Məscidlərin inşaat texnikası.** Məscid konstruksiyaları şərh olunarkən tətbiq olunan inşaat texnikasına, istifadə olunmuş inşaat materiallarının xüsüsiyyətlərinə toxunulur. Məscidlərin tərkib hissələrinin təyinatı, onların bir-biri ilə əlaqələri və ardıcıllığı göstərilir. Beləliklə, məscidlərin kompozisiya xüsusiyyətlərinin açılmasına cəhd göstərilir. Təbriz məscidlərində istifadə olunmuş əsas tikinti materialları bişmiş kərpic, daş, kaşı, şüşə, taxta, mərmərdir. Məscidlərin tikintisində istifadə olunan tikinti materiallarını zaman və müxtəlif üslublar baxımından cədvəl halında təqdim edilip.

**3.4. Məscidlərin memarliq bəzəyi .** Yerli memarlıqda dekorativliyə və simvolizmə güclü ənənəvi meyl özünü səthlərin ornamentlərlə süslənməsi formasında göstərmişdir. Bu iş Təbriz memarlığında heyrətləndirici yüksəlişə və bədii-estetik effektə yetişdiyi qəbul olunur. Təbriz memarlığında iki tip - həndəsi və nəbati ornament onun inkişafının bütün mərhələlərində və bütün üzlük materialı növlərində (kərpic, daş, gəc, keramika, kaşı, ağac və s.) işlədilsə də, XIV əsrin birinci yarısınadək həndəsi ornament aparıcı olmuşdur. Standart ölçülü bişmiş kərpic həm əsas inşaat, hem de üzlük materialı olanda bəzəkli hörgü ilə geniş səthləri bəzəmək çətin deyildi.

*Məscidlərdə rəng.* Yerli memarlıqda rəng daha çox təsvir xarakteri daşıyır, müxtəlif həndəsi, bitki ya xətt formalarında təzahür edir. Rəng

və təsvir kaşı vasitəsilə, gəc üzərində rəngləmə və bəzən rəngli şüşələrlə tikiliyə daxil olur. Tarixi abidələrin rəng çalarlarının araşdırılmasından məlum olan çox mühüm məsələ - istifadə olunan rənglərin məhdudluğudur**.**

*Məscidlərdə su.*Təbriz məscidlərinin su təminatı tarixən kəhriz və yeraltı sular vasitəsilə həyata keçirilmişdir. Məscidlərdə sudan ibadətə başlamazdan əvvəl dəstəmaz almaq üçün həyətin ortasındakı hovuzdan, sadəcə içmək üçün təmiz su doldurulmuş sudaşından götürməklə istifadə olunurdu məscidlərin çoxunun qarşısında böyük daş qab qoyurdular ki, gələnlərin susuzluğunu yatırtmaq üçün içində sərin su saxlamaq mümkün olsun. Bəzi sənədlərdə sudaşı cam kimi qeyd olunmuşdur.

## YEKUN NƏTİCƏLƏR

1.İslamın ilkin dövrlərindən başlayaraq məsciddən istifadə və bu dini binanı səciyyələndirən xüsusiyyətlər tarixi mərhələlər üzrə gözdən keçirilərkən müəyyən edilir ki, şəhərdə məscid inşaatının başlanğıc tarixi islamın yayılması ilə eyni dövrə təsadüf edir. Faktoloji materiallar əsasında bu fikrə gəlinir ki, məscid memarlığı ən yüksək inkişaf dövrünü Elxanilər (1256-1353) və Teymurilər(1370-1507) zamanında yaşamış, sonrakı dövrlərdə dəyişiklik və tərəqqinin tempində müşahidə olunan azalma məscid inşaatına da sirayət etmişdir.

2.Ölkə ərazisində islamın ilk vaxtlarından məscid memarlığının təkamülü və yerli məscidləri səciyyələndirən xüsusiyyətlər, Təbriz şəhərinin təbii iqlim şəraiti və onun strukturunda məscidlərin yeri, ilk məscidlərin inşası və müxtəlif dövrlərdə onların xüsusiyətləri şərh olunur və müəyyən edilir ki, məscidlərin inkişafı və geniş yayılması Elxanilər dövrünə təsadüf edir. Təbriz memarlıq məktəbində günbəzin təkamül prosesinin mərhələlərinin izlənilməsi göstərir ki, onun sivri profili zamana görə dəyişir və getdikcə daha iti olur. Səlcuqlar çağında günbəzin biçimi sferikə yaxın, Elxanilər çağında sferokonik, Səfəvilər çağında soğanvari olmuşdur. Təbriz memarlıq məktəbində baştağlar: iki minarəli, səthli, həcmli və ayrıca dayanan deyə dörd əsas qrupa bölünür.

3.Yerli dini memarlığın çoxəsrlik inkişaf prosesində kompozisiya

və bədii tərtibat baxımından özünəməxsus mehrablar yaradılmışdır. Üzlük materialına: gəc, kaşı və mərmərə görə Təbriz bölgəsində üç tip mehrabların işləndiyi müşahidə olunur.

4.Tarixi materialların araşdırılması göstərir ki, İran coğrafiyasındakı məscid örnəklərində mövcud olan hər bir element tədricən məscidin memarlıq quruluşu və məkanın malik olduğu sistem çərçivəsində formalaşmaqla, zaman keçdikcə daha da təkmilləşərək zənginləşmişdir. Tip rəngarəngliyinə baxmayaraq məscidlərin ümumi quruluşu və əsas elementləri demək olar eynidir.

5.Təbriz Azərbaycan və İranın şimal-qərbinin ən böyük mərkəzi şəhəri kimi mövqeyini hər zaman qorumuşdur. Şəhərin tarixi xəritələri, səfərnamələr və şəhər ərazisində mövcüd olmuş tarixi binaların qalıqlarının araşdırılmasından belə nəticə əldə olunur ki, şəhərin ilk nüvəsini bazar və onun ətrafındakı məhəllələr təşkil etmişdir. Şəhərin inkişaf və gəlişmə prosesi 6 tarixi dövrə bölünür ki, bunların hər biri şəhərin quruluşuna öz təsirini buraxmışdır.

6.Təbrizin təbii iqlim şəraiti və coğrafi mühitinin memarlıqla əlaqəsi araşdırılarkər belə bir hal müşahidə edilir ki, bu bölgədə inşa edilmiş məscidlərin tavanları digər bölgələrdəki məscidlərə nisbətən alçaqdır və bu da xarici mühit ilə istilik mübadiləsinin azalması və istinin binanın daxili hissəsində qalması ilə nəticələnir. Təbriz məscidlərində xarici qapılar və pəncərələrin sayının azaldılması və ölçülərinin kiçildilməsi yolu ilə xarici mühit ilə istilik mübadiləsi minimum səviyyəyə endirilir. Bu iqlimə aid məscidlərdə ya həyət yoxdur (Təbrizin Göy məscidi), ya da Günəş hərarəti düşən hissədə kiçik bir həyət qoyulmuşdur (Təbriz Came məscidi). Yaxud binanın ümumi sahəsinə nisbətən kiçik bir həyət təşkil edilmişdir. Həyətə malik olan bəzi digər məscidlərdə isə həyət ilə salon arasında bir əlaqə yaradılmamışdır.

7.Dörd eyvanlı adı ilə tanınan Came məscidi qədim üslubda olmaqla, dördbucaqlı açıq sahəyə və dörd bucaqda dörd eyvana və böyük və günbəzli otağa malik olmaqla qibləyə tərəfdir və bu otaq normalda qiblə eyvanının arxasında olmuşdur.

8.Təbriz məscidləri məkan elementlərinə görə digər İran şəhərlərinin məscidləri ilə uyğunluq təşkil edir.

9. Bütün məqamlarda günbəz binanın inşaat texnikası təşkil edən başlıca element sayılır. Hacət və Meydan məscidləıı istisnadır.

Divarlar da binanın konstruksiyasını təşkil edən elementdir və məscid şəbistanında divarlardan başqa sütunlar da var ki, bunlar konstruksiyalara daxil edilir.Tavan formasının əksər məscidlərdə tağtavan və günbəz formalı olduğu müəyyən edilir.

## İŞIN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

Hazırki tədqiqat işi Təbriz şəhərının tarixi məscidlərinin memarliq xüsusiyyətlərini işiqlandırır.Tədqiqatımızda əldə olunmuş nəticə bu sahələrdə istifadə olunmuşdur:

1- 2011-2015-ci illər Təbriz şəhərində tarixi məscidlərin bərpa və rekonstruksiya işlərində.
2- İslam Azad Universitetinin Təbriz filialindavə İslam Azad Universitetinin Sərdrud filialinda, şəhərsalma və memarlıq fakültəsinin bakalavr və magistr pillələrində dərs vəsaiti kimi istifadə oluna bilər.
3- Müəllif 2008 ci ildən sonra , tarixi məscidlərin layihələndiməsinə görə müxtəlif seminar təşkilatçısı olub.

## DISSERTASİYA İŞİNİN MÖVZUSU ÜZRƏ AŞAĞIDAKI ƏSƏRLƏR ÇAP OLUNMUŞDUR:


1. Edrisi Xosroşahi,N. Təbriz şəhərinin Qacar məscidlərinin memarlığı (kitab-təlif)// Təbriz, Ənvər.
2. Edrisi Xosroşahi,N.The Artistic culture of Centeral Asia And Azerbayjan in 9th-15th Centuries Architecture[*kitab-tərcümə(Müəllif :Qiyasi.C)*] // Təbriz, Ənvər.
3. Edrisi Xosroşahi,N. Məscidlərdə simvolik formalar və dizaynlar// AzMİU-nin Elmi əsərlər jurnalı,No.2,2014.
4. Edrisi Xosroşahi,N.Qədim Təbriz bazarının məscidləri// Şərq ölkələri beynəlxəlq memarliq akademiyası- No2‹3.
5. Edrisi Xosroşahi,N. Təbriz məscidlərinin memarlığına Coğrafi mühit və təbii iqlim şərtlərinin təsiri // Şərq ölkələri beynəlxəlq memarliq akademiyası,No2‹8.

6. Edrisi Xosroşahi,N.Təbriz şəhərinin Ayətullah Xosroşahi məscidinin bərpası və memarlığı// Urbanizm,No.18.
7. Edrisi Xosroşahi,N. Təbriz şəhərində Məscidlərin formalaşması və inkişafina təsir göstərənTarixi,iqtisadi və siyasi-ictimaii amillər// Izdenik poisk,No2‹2.
8. Edrisi Xosroşahi,N.The concept of decoration in Islamic architecture// Architecure ,No 14.
9. Edrisi Xosroşahi,N.The role of locality mosques on sustainable architecture //2nd National Confrence on Sustainable Architecture(book),Həmədan,2012.
10. Edrisi Xosroşahi,N.Study of architecture of islamic Iran in Ilkhanid period in east Azarbayjan// The Turkish online journal of Design,Art and Communication.TOJDAC(http://www.tojdac.org/tojdac/VOLUME6-ISSUE4.html). İstanbul,2016.
11. Edrisi Xosroşahi,N.Müsəlman şəhərlərinin formalaşmasında görkəmli məscidlərin rolu// The 1st International Conference On The Role Of The Cultural Heritage On The National Identity Formation(book). Məruzə,Şiraz,2012.
12. Edrisi Xosroşahi,N.Təbriz şəhərində turizmin inkişafı yolunda duran maneə, imkan və problemlərin öyrənilməsi və bu sahədə tərəqqiyə nail omaq məqsədilə mümkün həll yollarının təqdim edilməsi // The 1st International Conference On The Role Of The Cultural Heritage On The National Identity Formation, Şiraz,2012.
13. Edrisi Xosroşahi,N.İranın ənənəvi memarlığında qadınların iştirak etməməsinin müsbət və mənfi təsirlərinin araşdırılması// National Confrence on Architecture and Urbanism in İran, 7th International symposium on advances in science &technology (SASTech), Mashhad, 2013.
14. Edrisi Xosroşahi,N. Mosques planning in Iran ,Fashion or Culture// 7th International Symposium on Advances in science of technology,Hormozgan,Bəndərabbas, march 14-15, 2013.
15. Edrisi Xosroşahi,N.Decoration in Blue Mosque of Tabriz// International Confrence on Civil Engineerirng Architecture & Urban Sustainable development,Təbriz, 18-19December2013.

16. Edrisi Xosroşahi,N.Memarlıq nədir// The 1st National Confrence on Architecture and Women, Tehran,2009.
17. Edrisi Xosroşahi,N. Torpaq və Su (kərpicdən yaranan memarlıq)// 1st International Confrence on human,Architecture,Civil Engineering and City(ICOHACC 2015), Təbriz,2015.

## N.Matrakçının Təbriz miniatürü- XVI əsr








1 2 3 4 5 6

1.Göy məscid
2. Həsən padişah məscidi
3.Cami məscidi
4-Hacət məscidi məscidi
5-Uśtad və şagird məscidi
6-Olişah məscidi

# Minarələrin növləri

| Tip1 | Tip 2 | Tip3 |
|---|---|---|
| Əlişah | Hacət(Müasir vəziyyət) | Cami |
| Göy Məscidi | Hac Səfərəli | Hacət |
| Həsən padişah | | Zəhiriyyə |
| Sahibüləmr | | Ustad və Şagird |
| Meydan | | |




1-Minarələrin tipləri
Tip 1 :Baş fasadın yanlarında olan minarələr
Tip2 : Dam üstündə olan minarələr
Tip3 :Tək minarəli məscidlər

2-Matrakçı miniatüründa minarələrin tipləri (Təbriz şəhəri)(Edrisi Xosroşahi N)
3-Matrakçı miniatüründa minarələrin tipləri (Təbriz şəhəri)

# Əlişah məscidi təsviri sənədlərdə




1,3,4- Əlişah məscidinin bərpa eskizi-plan,Ön və ümumi görünüşlər-(C.Qiasi)
2- Əlişah məscidinin bərpa eskizi(D.Ulberdən)

# Məscidlərin tipləri




Tip 1: Cami-Hacət-Sahibüləmr
Tip 2: Əlişah-Ustad və Şagird-Göy Məscidi-Həsən padişah-Hac Səfərəli
Tip 3: Zəhiriyyə-Meydan

# Məscidlərin memarlıq kompozisiya xüsusiyyətləri (Giriş hissəsində nisbətlər)




| Dövrə | Məscidin Adı | Giriş hissəsində nisbətlər |
|---|---|---|
| Səlcuqlar | Cami | 1.27 |
| | Hacət | 1.65 |
| Elxanilər | Əlişah | * |
| | Ustad və Şagird | Əsas giriş: 1.69<br>İkinci giriş: 1.65 |

| Dövrə | Məscidin Adı | Giriş hissəsində nisbətlər |
|---|---|---|
| Səfəvilər | Sahibüləmr | 1.87 |
| | Seyid həmzə | 1.78 |
| | Meydan(maqsudiyə) | 1.26 |
| | Hac səfər ali | 2.66 |

| Dövrə | | Məscidin Adı | Giriş hissəsində nisbətlər |
|---|---|---|---|
| Teymurilar | Qara qoyunlular | Göy məscid | 1.75 |
| | Ağ qoyunlular | Həsən padişah | 1.4 |

* əldə məlumat yoxdur

## Məscidlərin memarlıq kompozisiya xüsusiyyətləri (Giriş sahəsinin nisbəti planın sahəsinə)




Planın sahaəi
Giriş hissəsinin sahəsi
* əldə məlumat yoxdur

# Məscidlərdə şəbistanın hündürlükı




h > 20 metr
7-20 metr
5-7 metr
4-5 metr
3-4 metr
h < 3 metr
* Məlumat (sənəd) yoxdur

# Məscidlərdə beşbucaqlıdan yaranan həndəsə




1,2 - Seyid həmzə (Zəhiriyyə) ( Fasad)
3,4 - Hac səfər ali (Plan)
5,6 - Hac səfər ali (Fasad)

# Təbrizin orta əsr məscidlərinin memarlıq bəzəyi

| Dövr | Məscid | Şəkil | materiallar | forma |
|---|---|---|---|---|
| Səlcuqlar | Cami |  | gips | təbii formada ornamentlər -kitabə |
| Elxanilər | Əlişah |  | kərpic - daş - kaşı | həndəsi ornamentlər |
| Elxanilər | Zəhiriye |  | kərpic - firuzəyi kaşı | həndəsi ornamentlər |
| Elxanilər | Cami |  | gips | təbii formada ornamentlər-kitabə |
| Teymurilar | Həsən padişah |  | kərpic - firuzəyi kaş - daş | islimi ornamentlər -kitabə<br>həndəsi ornamentlər |
| Teymurilar | Göy məscid |  | kərpic - firuzəyi kaşı | islimi ornamentlər<br>həndəsi ornamentlər |
| Teymurilar | Cami |  | firuzəyi kaşı | islimi ornamentlər |
| Səfəvilər | Sahibələmr |  | gips - daş | nəbati ornamentlər - kitabə |
| Səfəvilər | Zəhiriye |  | gips - daş | nəbati ornamentlər - kitabə |
| Səfəvilər | Hac səfər ali |  | gips - kərpic | kərpic hörgü<br>həndəsi ornamentlər |

# Məscidləridə tavanların növləri




- Gunbəz
- 4bəxş (Bir növ tağ-tavan)
- Tağbənd (Bir növ tağ-tavan)
- Karbəndi (
- Kəcavə tağ(Bir növ tağ-tavan)
- Bəlxi(Bir növ tağ-tavan)
- Karbəndi
- Kolombu(Bir növ tağ-tavan)

**НАЗИЛЯ ГУСЕЙН гызы ЭДРИСИ ХОСРОШАХИ**

# АРХИТЕКТУРА СРЕДНЕВЕКОВЫХ МЕЧЕТЕЙ ГОРОДА ТАБРИЗА

## РЕЗЮМЕ

**Цель и методы исследования .**Главная цель исследования изучения материала о мечетях города Тебриз, дошедших до наших дней и анализ их состояния в настоящее время.

Просмотрены все мечети города Тебриз, особенности их композиции, а также объёмная структура и исследованы их художественно-архитектурные особенности. Главным вопросом остаётся определение расположения мечетей в городе и районах, определение их имён (названий).

**Научная новизна исследованияв**. том, что главное в исследовании истории Тебриза – художественная архитектура мечетей, дошедших до наших дней.

Конечно же, не исключены поверхностные исследования местных и зарубежных авторов, исследовавших особенности архитектуры отдельных мечетей. В представленной диссертационной работе комплексно показана архитектурная особенность мечетей города Тебриз.

Диссертация состоит из введения, 3 глав, которые будут коротко изложены впоследствии, заключения, списка использованной литературы и альбома иллюстраций.

**Первая глава:**«Факторы, повлиявшие на формирование и развитие мечетей» состоит из четырёх подглав и здесь исследованы проблемы генезиса, роли и природно-климатических факторов, роль культуры в их сооружении, а так же их расположение в структуре города.

**Вторая глава:**«Основные этапы развития религиозной архитектуры города Тебриз».В этой главе исследованы особенности архитектуры исторических памятников (мечетей) города Тебриз.

**Третья глава:** «Структура мечетей и архитектурная решение

», эта глава посвящена изучению типологии мечетей, анализирует их композицию, их планировку, особенности организации и строительства, вопросы строительной техники и строительного материала, проанализирована композиция строительства мечетей.

**NAZILA EDRISI KHOSROSHAHI**

# ARCHITECTURE OF THE MEDIEVAL MOSQUES IN TABRIZ

## SUMMERY

**The purpose of research.** The main purpose of research work is analysing systematically mosques in Tabriz city that had survived to this day and investigating their present condition. Mosques of Tabriz city were reveiwed thoroughly; their arrangement peculiarities, as well as volume and spacing structure and architectural-artistic means were investigated. Determination of their location in city structure and in blocks and specifying their names were raised as an important point.

**Scientific novelty of the study** consists of that though historical architecture of mosques standing in a higher position among historical heritage of Tabriz city is important in itself, it has not been investigated scientifically yet. Of course, different local and foreign aouthors' superficial glance over distinctive architectural features of the mosques in Tabriz city is an exception. Architecture of mosques in Tabriz city is reviewed thoroughly fow the first time with all its aspects within the framework of presented dissertation.

The dissertation consists of these parts; introduction, three chapters which will be clarified shortly in the following, conclusion, list of the literature and the album of illustrations.

**The first chapter -**"Factors affecting formation and development of mosques" consists of four sections and there were investigated the the problems of genesis, role of the natural – climatic factor, cultural role of these constructions as well as the place of mosques in the structure of the city.

**The second chapter -**"Main development stages of religious architecture in Tabriz city". Peculiarities characterizing historical mosques of Tabriz city, their architecture and construction has been analysed in this chapter.

**In the third chapter -"**Architectural solution and structure of mosques", this chapter, was dedicated to studying typology of mosques, analyzed composition of them , their planning – spatial organization and constructive peculiarities, questions of building technique and building materials, analyzed composition of mosques.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**НАЗИЛЯ ГУСЕЙН гызы ЭДРИСИ ХОСРОШАХИ**

# АРХИТЕКТУРА СРЕДНЕВЕКОВЫХ МЕЧЕТЕЙ ГОРОДА ТАБРИЗА

Специальность 6401.01
- «Теория и история архитектуры,
реставрация и реконструкция памятников»

**АВТОРЕФЕРАТ**

диссертации на соискание учёной степени
доктора философии по архитектуре

**Баку – 2017**